**Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" nda nəzərdə tutulan tədbirlərin Vergilər Nazirliyi tərəfindən 2015-ci ildə icrası barədə hesabat**

| № | Tədbirin adı | Vergilər Nazirliyi tərəfindən görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| **1. Ərizə və şikayətlərə baxılması işinin təkmilləşdirilməsi** | | | |
| 1.1 (2.5)* | Vergilər Nazirliyinin rəhbərləri tərəfindən mütəmadi olaraq vətəndaşların birbaşa, o cümlədən səyyar qəbulunun təşkili | Hesabat dövründə müraciət etmiş 1470 vətəndaş Vergilər Nazirliyində qəbul edilmiş, eyni zamanda regionlarda keçirilmiş səyyar qəbulda vergilər naziri tərəfindən daha 252 vətəndaş qəbul edilmişdir. Qəbul zamanı hər bir vətəndaşın müraciətinə fərdi qaydada yanaşılmış, müraciətin mahiyyəti diqqətlə öyrənilmiş, bəzi müraciətlərə dərhal cavab verilmiş, digərləri isə baxılması üçün nəzarətə götürülmüşdür. | 2012-2015 |
| **3. Maraqlar toqquşmasının qarşısının alınması və maliyyə xarakterli məlumatlar haqqında bəyannamələrin təqdim edilməsi** | | | |
| 3.1 (9.2) | Maraqlar toqquşmasının qarşısının alınması üzrə treninqlərin təşkili | Hesabat dövründə Vergilər Nazirliyinin Tədris Mərkəzində "Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri" və "Korrupsiyaya qarşı mübarizə, maraqların toqquşması, etik davranış və vergi orqanlarında daxili nəzarət sisteminin tətbiqi vəziyyəti" mövzularında təlimlər təşkil olunmuş və həmin təlimlərdə 83 nəfər vergi orqanı əməkdaşı iştirak etmişdir. | 2013-2015 |
| **4. Etik davranış qaydalarının təkmilləşdirilməsi** | | | |
| 4.1 (10.1) | Vergi xidməti əməkdaşları üçün etik davranış məsələləri üzrə mütəmadi tədris kursları və treninqlərin təşkil edilməsi | Vergilər Nazirliyinin Tədris Mərkəzində vergi orqanı əməkdaşları üçün keçirilən bütün ilkin hazırlıq və ixtisasartırma kursları üzrə tədris-mövzu planlarına etik davranış mövzuları daxil edilmiş və hesabat dövründə həmin plana uyğun olaraq "Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri" və "Korrupsiyaya qarşı mübarizə, maraqların toqquşması, etik davranış və vergi orqanlarında daxili nəzarət sisteminin tətbiqi vəziyyəti" mövzularında təlimlər təşkil olunmuşdur. | 2012-2015 |
| 4.2 (10.2) | Etik davranış məsələləri üzrə illik hesabatların hazırlanması və ictimayyətə açıqlanması (hesabatlarda aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və tətbiq edilmiş intizam tənbehi tədbirləri göstərilməklə) | Etik davranış məsələləri ilə bağlı Verglər Nazirliyi tərəfindən maarifləndirmə işləri aparılmış, işə yeni qəbul edilmiş əməkdaşlara nazirliyin əmri ilə təsdiq edilmiş "Vergi işçisinin etik davranış kodeksi"nin orijinal nüsxələrinin verilməsi nəzarətdə saxlanılmışdır.<br>Dövr ərzində həmin kodeksin tələblərinin pozulması ilə əlaqədar vətəndaşlardan daxil olmuş 164 şikayətə nazirlikdə baxılmış, onlardan 120-i əsassız hesab edilmiş, 15-i barədə vətəndaşa müvafiq izahat verilmiş, 29-u əsaslı hesab edilərək şikayətə səbəb olmuş əməkdaşlar barədə müvafiq | 2012-2015 |

| № | Tədbirin adı | Vergilər Nazirliyi tərəfindən görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | tədbirlər görülmüşdür.<br>Bundan əlavə, nazirliyin strukturlarının təqdimatları ilə əlaqədar “Vergi işçisinin etik davranış kodeksi”də göstərilən vəzifələrin icrası zamanı intizam pozuntusuna yol vermiş əməkdaşlarla fərdi söhbətlər aparılmış və həmin əməkdaşlar barəsində intizam tənbehi tədbirləri görülmüşdür.<br>“Vergi işçisinin etik davranış Kodeksi”nin təkmilləşdirilməsi ilə əlaqədar nazirlikdə qaydaların yeni layihəsi hazırlanmış və 2015-ci ildə “Dövlət vergi orqanları əməkdaşlarının etik davranış Qaydaları” təsdiq edilmişdir. Yeni qaydalarda etik davranış sahəsində nazirliyin dəyərləri, etik davranış qaydalarının əhatə etdiyi münasibətlərin dəqiq dairəsi, rəhbər vəzifə tutan əməkdaşların davranış qaydalarına əlavə tələblər, etik davranış qaydaları ilə bağlı müraciətlərin qəbulu və onların araşdırılması prosedurası, etik davranış qaydaları sahəsində nəzarətin bölgüsü, habelə etik davranış qaydalarına tam riayət etməsinə və vəzifə funksiyalarını layiqincə yerinə yetirməsinə baxmayaraq kənar şəxslər tərəfindən təzyiq və qeyri-etik davranışlara məruz qalan vergi orqanları əməkdaşlarının hüquqi müdafiəsi məsələləri də əks etdirilmişdir. Eyni zamanda qaydalarda əvvəlki kodeksdə nəzərdə tutulmuş bir sıra etik davranış qaydaları təkmilləşdirilmiş, onların sırasına yeniləri əlavə edilmişdir. Yeni qaydalar haqqında KİV üçün məlumat rəsmi internet saytında yerləşdirilmişdir.<br>Eyni zamanda etik davranış məsələləri üzrə illik hesabatlarla bağlı müvafiq məlumatlar hazırlanaraq Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) yerləşdirilmiş, KİV-də yayımlanmış və dövrü mətbuatda dərc olunması təmin edilmiş, yerli vergi orqanlarının əməkdaşları üçün “Etik davranış” mövzusunda keçirilən təlimlər barədə məlumatlar rəsmi internet saytda yerləşdirilmişdir. | |
| **5. Sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin təkmilləşdirilməsi** | | | |
| 5.1 (12.5) | Sahibkarlıq sahəsində aparılan yoxlamalarla bağlı risk qiymətləndirilməsi sisteminin yaradılması və yoxlamaların risklərin | Vergilər Nazirliyi tərəfindən sahibkarlıq sahəsində keçirilən səyyar vergi yoxlamaları 2013-cü ildən başlayaraq müvafiq risk modelləri əsasında təyin edilir. Vergi Məcəlləsinin və nazirliyinin əmri ilə 2013-cü ildə təsdiq edilmiş “Vergi auditinin keçirilməsi Qaydaları”nın tələblərinə müvafiq olaraq vergi | 2012-2015 |

| № | Tədbirin adı | Vergilər Nazirliyi tərəfindən görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | idarə olunması əsasında təyin edilməsi | ödəyiciləri tərəfindən yol verilmiş vergi qanunvericiliyinin pozulması halları hər bir audit sahəsi üzrə risk modellərinə əsaslanan seçimin nəticələri əsasında sistemləşdirilir, vergi yoxlamaları məqsədləri üçün audit seçmə sisteminin imkanlarından, vergi ödəyicilərinin bəyannamə məlumatlarından və xarici mənbələrdən əldə ediləcək məlumatlardan istifadə metodları, risk modellərinə əsaslanan seçim modelləri, risk modellərinin əhatə dairəsinə daxil olan parametrlər müəyyən edilir. Keçiriləcək səyyar vergi yoxlamalarının müvafiq risk modelləri əsasında təyin edilməsi nəzərdə tutulmuşdur.<br>Vergi ödəyiciləri üzrə iki risk qrupu müəyyən edilmiş və operativ vergi nəzarəti tədbirləri həmin meyarlar üzrə avtomatlaşdırılmış qaydada seçilməsi yolu ilə həyata keçirilir.<br>Kameral vergi yoxlamaları üzrə risklərin qiymətləndirilməsidə isə nazirliyin “Hesabat&Axtarış” İnformasiya sisteminin “AVİS-dən kənar uyğunsuzluqlar və risk meyarları üzrə real kameral hesablamalar barədə hesabat”dan istifadə edilir.<br>Vergi nəzarətinin daha effektiv şəkildə həyata keçirilməsi, vergi potensialının daha dəqiq müəyyənləşdirilməsi və vergi sistemində yarana biləcək risklərin müasir idarəetmə alətlərindən istifadə edilməklə müxtəlif risk meyarları nəzərə alınmaqla qiymətləndirilməsi üçün Atomatlaşdırılmış Vergi İnformasiya Sistemində “Vergidən yayınma risklərinin idarə edilməsi” (Tax Risk Managment - TRM) aləti yaradılmış və 2014-cü ildə istifadəyə verilmişdir.<br>Bununla yanaşı, vergi risklərinin minimallaşdırılması və son nəticədə vergi potensialının tam həcmdə səfərbər edilməsi məqsədilə “Vergidən yayınma risklərinin idarə edilməsi” alətindən vergi orqanlarının strukturlarının funksionallığı baxımından istifadə olunması məqsədilə müvafiq əmrlə “Vergidən yayınma risklərinin idarə edilməsi üzrə risk meyarları və onların hesablanması metodikası” təsdiq olunmuşdur. Metodikaya uyğun olaraq TRM aləti vasitəsilə müxtəlif risk meyarları üzrə müəyyən edilən və “Böyük risk”, “Ən böyük risk” balları kimi qiymətləndirilən vergi ödəyicilərinin siyahısı vergi orqanının funksional strukturu tərəfindən məlumat bazasından alınır və araşdırmalar aparıldıqdan sonra müvafiq tədbirlərin görülməsinə başlanılır. | |

| № | Tədbirin adı | Vergilər Nazirliyi tərəfindən görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| **7. Dövlət satınalmalarının təkmilləşdirilməsi və şəffaflığın artırılması** | | | |
| 7.3 (14.4) | Dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iştirak edən iddiaçıların hüquqlarını qorumaq məqsədi ilə şikayətlərə təxirə salınmadan baxılması üçün müvafiq tədbirlər görülməsi | 2015-ci ildə dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iştirak edən iddiaçıların hüquqlarının pozulması ilə bağlı müraciət, o cümlədən şikayət daxil olmamışdır. | 2012-2015 |
| 7.4 (14.5) | Dövlət satınalmalarında aşkar edilən korrupsiya halları barədə hüquq mühafizə orqanlarının məlumatlandırılması | Mülkiyyətində dövlətin payı olan müəssisə və təşkilatların vergiləri ödəməkdən yayınması faktları üzrə aparılan ibtidai araşdırmalar zamanı korrupsiya hallarına yol verilməsinə diqqət yetirilir. Dövlət satınalmalarında korrupsiya hallarına yol verilməməsi və vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmış şəxslərin müxtəlif müəssisələr təsis edərək tender və kotirovkalarda iştirakının qarşısının alınması məqsədi ilə hesabat dövründə dövlət orqanlarına və təhsil müəssisələrinə (Daxili İşlər Naziriliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Dövlət Sərhəd Xidməti, Diasporlarla iş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti) vergi cinayətləri törətmiş şəxslər və onların rəhbəri olduğu digər müəssisələr haqqında məlumatlar göndərilmişdir. | 2012-2015 |
| **10. Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi** | | | |
| 10.1 (26.1) | Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyət, müxtəlif beynəlxalq proqram və layihələrdə iştirak, habelə bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığın davam etdirilməsi | Tədbirin icrası məqsədilə 2015-ci ildə Macarıstan Respublikasının Budapeşt şəhərində “ƏDV fırıldaqçılığına qarşı mübarizə: Ən yaxşı təcrübə”, “Vergidən yayınmanın müəyyən edilməsi məqsədilə İT alətlərdən və Forensic Məlumat Bazasından istifadə” mövzularında, Türkiyə Respublikasının Ankara şəhərində OECD tərəfindən keçirilmiş “Vergi və Cinayət: Qanunsuz maliyyə axınlarına qarşı mübarizə” mövzusunda seminarda, Polşa Respublikasının Krakov şəhərində IOTA tərəfindən keçirilmiş “ƏDV saxtakarlığına qarşı mübarizə Forumu”nda və Gürcüstanın Tbilisi şəhərində IOTA tərəfindən keçirilmiş “ƏDV saxtakarlığının və vergidən yayınmanın yeni seqmentlərini və sahələrini müəyyən etmək üçün kəşfiyyat və araşdırmadan səmərəli istifadə” mövzusunda seminarda Vergilər Nazirliyinin nümayəndələri iştirak etmişdir. | 2012-2015 |

| № | Tədbirin adı | Vergilər Nazirliyi tərəfindən görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| 10.2 (26.2) | Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı çərçivəsində Azərbaycan Respublikasına verilmiş tövsiyələrin icrası istiqamətində zəruri tədbirlərin davam etdirilməsi | 2015-ci ildə Vergilər Nazirliyinin nümayəndə heyəti ilə Avropa Şurasının İqtisadi Cinayətlər və Əməkdaşlıq Şöbəsinin rəsmiləri arasında görüşlər keçirilmişdir. Görüşlərin keçirilməsinin məqsədi Vergilər Nazirliyinin Tədris Mərkəzinə etik davranış qaydaları, korrupsiya ilə mübarizə mövzuları üzrə proqramın hazırlanması və müvafiq təlimlərin təşkil edilməsi üçün dəstək göstərilməsi, Vergilər Nazirliyinin Avropa Şurası/Avropa İttifaqının “Azərbaycanda korrupsiya ilə mübarizə və onun qarşısının alınması sahəsində bacarıqların artırılmasına dəstək” layihəsinə cəlb olunması və əməkdaşlıq prioritetlərinin müəyyən edilməsi olmuşdur. | 2012-2015 |
| 10.3 (26.3) | Beynəlxalq Anti-Korrupsiya Akademiyası ilə əməkdaşlığın genişləndirilməsi, birgə təhsil və tədris layihələrinin həyata keçirilməsi | Beynəlxalq Anti-Korrupsiya Akademiyası ilə əməkdaşlığın genişləndirilməsi, birgə təhsil və tədris layihələrinin həyata keçirilməsi sahəsində müvafiq işlər 2015-ci ildə davam etdirilmişdir. Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun İqtisadi Cinayətlər və Əməkdaşlıq Şöbəsinin əməkdaşlarının “Azərbaycanda korrupsiya ilə mübarizə və onun qarşısının alınması sahəsində bacarıqların artırılmasına dəstək” layihəsi çərçivəsində 22-23 sentyabr 2015-ci il tarixlərdə nazirliyin Tədris Mərkəzinin əməkdaşları ilə görüşü keçirilmişdir. | 2013-2015 |
| **11. Korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişaf etdirilməsi** | | | |
| 11.1 (27.1) | Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrasına vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi | Tədbirin icrası ilə “Azərbaycanda vergi sistemi: reallıqlar və perspektivlər” adlı III Vergi Forumu keçirilmişdir. Forumun işinə dövlət orqanları, beynəlxalq təşkilatlar və banklarla yanaşı qeyri-hökumət təşkilatlarının və sahibkarların ictimai birliklərinin nümayəndələri də cəlb edilmiş və diskussiyalarda iştirak etmişlər. | 2012-2015 |
| 11.2 (27.2) | Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə birgə layihələrin həyata keçirilməsi ilə bağlı daxil olan təkliflərə dair aidiyyəti tədbirlərin görülməsi | “Vergilər” qəzetinin təşkilatçılığı ilə 2015-ci ildə “Sosial-iqtisadi hüquqların müdafiəsi: dövlət və vətəndaş məsuliyyəti” və “Vergi öhdəliklərinin yerinə yetirilməsində sosial tərəfdaşların rolu” dəyirmi masalar təşkil edilmiş və qeyd olunan tədbirlərə vətəndaş cəmiyyəti institutları, media və qeyri-hökumət təşkilatlarının nümayəndələri cəlb edilmişdirlər. Bu tədbirlərdə İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı), dövlət orqanlarının və vətəndaş cəmiyyətinin nümayəndələri və Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri iştirak etmişlər. | 2012-2015 |

| № | Tədbirin adı | Vergilər Nazirliyi tərəfindən görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| **12. Korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirmə** | | | |
| 12.1 (28.2) | Vergilər Nazirliyinin fəaliyyətində korrupsiyaya qarşı mübarizə ilə əlaqədar televiziya və radio proqramlarında debatların təşkil edilməsi | Tədbirin icrası ilə əlaqədar AzTV-nin "Günün nəbzi" və İTV-nin "Diqqət Mərkəzində" verilişlərində Vergilər Nazirliyinin fəaliyyəti, vergi orqanlarının işində şəffaflığın təmin edilməsi, vergi sistemində tətbiq olunan e-xidmətlər və bunların korrupsiyaya qarşı mübarizədə oynadığı rol haqqında müzakirələr təşkil edilmiş, nazirliyin vəzifəli şəxsləri həmin verilişlərdə iştirak etmişlər. | 2012-2015 |
| 12.2 (28.3) | Vergi orqanlarına ictimai etimadın artırılması məqsədi ilə onların fəaliyyəti ilə bağlı təbliğat işinin təşkil edilməsi | Vergi orqanlarına ictimai etimadın artırılması məqsədi ilə onların fəaliyyəti ilə bağlı təbliğat işinin təşkil edilməsi məqsədilə hesabat dövründə mütəmadi işlər görülmüşdür. Belə ki, 2015-ci ildə vergi orqanlarının fəaliyyəti barədə KIV-ə 144 sayda press-reliz verilmiş, bu məlumatlar dövrü mətbuatda və elektron KİV-də geniş işıqlandırılmış, vergi orqanlarının rəhbər vəzifəli şəxslərinin KİV üçün 92 müsahibəsi təşkil olunmuşdur. 2015-ci ildə aparıcı internet saytlarında Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı 2359 sayda məqalə və informasiya dərc edilmişdir.<br>Mərkəzi televiziya kanallarının informasiya və digər ictimai-siyasi, eləcə də sosial-iqtisadi proqramlarında isə 2015-ci ildə vergilərə dair 580 sayda süjet efirə verilmişdir.<br>Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı qeyd edilən məlumatların, o cümlədən press-relizlərin mütəmadi olaraq nazirliyin rəsmi internet səhifəsində (www.taxes.gov.az) yerləşdirilməsi təmin edilmişdir. Eyni zamanda vergilərin elektron ödənişi, pos-terminallardan istifadə təlimatı, vergi bəyannamələrinin doldurulması barədə video təlimatlar hazırlanaraq nazirliyin rəsmi internet səhifəsində (www.taxes.gov.az), “Facebook”, “Youtube” və “video.az” saytlarında yerləşdirilmişdir. | 2012-2015 |
| 12.2.1 (28.3) | Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri sahəsində təlimlərin keçirilməsi | Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması, məlumat azadlığı məsələləri mövzularında təlimlərin keçirilməsi məqsədilə Vergilər Nazirliyinin Tədris Mərkəzində tədris-mövzu planına “Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri”, “Korrupsiyaya qarşı mübarizə, maraqların toqquşması, etik davranış və vergi orqanlarında daxili nəzarət sisteminin tətbiqi vəziyyəti" və sair mövzular daxil edilmiş və vergi orqanı əməkdaşlarına təlimlər | |

| № | Tədbirin adı | Vergilər Nazirliyi tərəfindən görülmüş işlər | İcra müddəti |
|---|---|---|---|
| | | keçirilmişdir. | |
| 12.3 (28.6) | Korrupsiyaya qarşı mübarizə sahəsində bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və əhali arasında paylanması | Vergilər Nazirliyi tərəfindən Korrupsiyaya qarşı mübarizə sahəsində bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və əhali arasında paylanması məqsədilə 2013-cü ildə "Şəffaflıq, Korrupsiyaya qarşı mübarizə" adlı 2000 sayda, 2014-cü ildə "Korrupsiyaya yox deyək" adlı 1500 sayda buklet hazırlanaraq nəşr etdirilmiş və vergi ödəyicilərinə çatdırılması üçün aidiyyəti üzrə təqdim edilmişdir. Bukletdə korrupsiya ilə əlaqədar əsas anlayışlar, korrupsiyaya qarşı mübarizəni həyata keçirən orqanlar, Vergilər Nazirliyində korrupsiyaya qarşı mübarizəni həyata keçirən struktur, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə baxılmasının xüsusiyyətləri barədə məlumat verilmiş, korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə məlumat vermə imkanları əksini tapmışdır. | 2012-2015 |

**Qeyd:** (2.5)* - mötərizədə göstərilmiş bəndlər Milli Fəaliyyət Planındakı bəndlərin nömrələrini göstərir